# EKOLOJİ FAKTORLARIN KƏND TƏSƏRRÜFATINDA ROLU

**Cavid Ağakişiyev**

*AR KTN Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu, Bakı*
*nuranli@mail.ru*

Müstəqillik dövründə respublikada bir sira struktur dəyişikliyi aparılmış, ətraf mühitin qorunması və təbii ehtiyatlardan istifadənin ayrı-ayrı aspektləri ilə məşğul olan qurumlar yaradılmışdır.

Bunlardan biri Ümummilli Lider Heydər Əliyevin 23 may 2001-ci il tarixli 485 saylı Fərmanı ilə yaradılan Ekologiya və Təbii Sərvətlər Nazirliyidir.

Ölkənin zəngin təbiətini qorumaq, meşələri bərpa etmək üçün Ölkə Başçısı cənab İlham Əliyevin tapşırıq və tövsiyələrini rəhbər tutaraq, yeni-yeni layihələr həyata keçirən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ölkəmizin ən ciddi ekoloji problemlərinin həllinə cəmiyyətin, qeyri-hökümət və beynəlxalq

təşkilatların diqqətini cəlb etməklə dövlətin müəyyən etdiyi ekoloji siyasəti ardıcıl və qətiyyətlə yerinə yetirir.

Ümumiyyətlə ətraf mühitin qorunması, mühafizəsi həmişə zamanın tələbləri ilə yaranmışdır. İnsanlar tərəfindən təbiətin, onun sərvətlərinin nizamsız qaydada istismar edilməsi bəşəriyyəti acınacaqlı vəziyyət qarşısında qoyur. İnsanlar təbiətdən məqsədəuyğun istifadə etməli və onu hərtərəfli qorumalıdırlar.

Cari ildə ölkəmizdə keçiriləcək COP-29 tədbirinin əsas məqsədi dünyada ümumiyyətlə atmosferdə karbon qazının (CO2) miqdarının sənayenin inkişafından əvvəlki dövrlərdə olduğu kimi 1,5$^0$C-dək azaldılmasına nail olmaqdır. Tədbirin keçirilməsi və əsasən aktuallığı bütün dünyada atmosferin zərərli qazlardan çirklənməsinin qarşısının alınması, təbiətin qorunması, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi və bitki örtüyünün qorunub saxlanılmasından ibarətdir.

Eyni zamanda dünyada atmosferin çirklənməsi, sənayenin çox intensiv inkişaf etməsi ilə əlaqədar olaraq, çirklənmənin qarşısını almaq məqsədilə inkişaf etmiş ölkələrdə iqlim dəyişikliyinin qaçılmaz təsirlərinin aradan qaldırılması üçün maliyyə dəstəyi üzrə fondların yaradılması məqsədəuyğundur. Bu dəstək olmadan inkişaf etməkdə olan ölkələr təmiz enerji mənbələrinə keçid edə, qlobal karbon qazı ifrazını azalda bilməzlər. Qısaca olaraq ekologiyanın və yaşıllıqların məhvinə gətirib çıxaran bəzi səbəbləri qeyd etmək istərdim.

Hazırda dünyada sənayenin inkişafı nəticəsində atmosferə buraxılan qazların təsiri kənd təsərrüfatı məhsullarının artırılmasına mənfi təsir göstərir. Bu da fauna və floranın məhvolma təhlükəsi deməkdir. Dünya alimlərinin hesablamalarına əsasən, orta temperatur 3°C-ni keçdikdə bitkilərin və canlılar aləminin 20-30%-inin nəslinin kəsilməsi təhlükəsini stimullaşdırır. İqlim dəyişmələri öz mənfi təsirini daha çox dəniz və okean ekosistemlərinə göstərir. Belə ki, bu dəyişilmələr Xəzər dənizində öz təsirini büruzə verir. Son vaxtlar Xəzər dənizinin suyunun səviyyəsinin azalması, hövzədə yaşayan suitilərin qırılması, nərə tipli balıqların nəslinin azalması və ümumiyyətlə, balıqçılıq məhsullarının azalması müşahidə olunur.

İnsanlar tərəfindən yaşıllıqların məhv edilməsi, meşələrin kütləvi surətdə bilərəkdən qırılması nəticəsində atmosferə və ekoloji sistemə ziyan vurulur. Bunun qarşısını almaq məqsədilə yaşıllıqlardan səmərəli istifadə etmək, qırılan meşələrin bərpa mexanizmini işləyib hazırlamaq və bərpa edilməsinə nəzarət etmək vacibdir.

İqlim dəyişilməsi əsasən su təminatına böyük təsir göstərir. Qafqazda Azərbaycan su ehtiyatlarına görə ən kasıb ölkə hesab olunur. Bu məqsədlə bütün sahələrdə, o cümlədən kənd təsərrüfatında sudan səmərəli istifadə etmək, suyun izafi israfına yol verməmək əsas şərtdir.

Azərbaycanda ekologiyanın və yaşıllıqların məhv olmasına təsir edən əsas səbəblərdən biri erməni işğalçıları tərəfindən 30 il ərzində ölkəmizin fauna və florasına vurulan ziyandır. Bu müddət ərzində Zəngilan rayonu ərazisində yerləşən tarixi Çinar meşəsi dağıdılmış, su hövzələri zəhərlənmiş, torpaqlar minalarla sirayətləndirilmiş, qızıl mədənləri və faydalı qazıntı yataqları vəhşicəsinə istismar edilmişdir.

Azərbaycanda iqlim dəyişilməsi nəticəsində getdikcə kənd təsərrüfatı məhsullarının məhsuldarlığı azalır. Kənd təsərrüfatı məhsullarının artırılması məqsədilə aşağıda qeyd olunan təkliflərə diqqət yetirmək lazımdır:

- məhsul istehsalının və becərilən bitkilərin məhsuldarlığının artırılması üçün müasir texnologiyalardan istifadə etmək;
- kənd təsərrüfatının bütün sahələri üzrə quraqlığa davamlı bitki sortlarının yaradılması və istehsalata tətbiqi;
- xəstəlik və zərərvericilərə qarşı yeni texnoloji mübarizə üsullarından istifadə etmək;
- su ehtiyatlarından səmərəli istifadə etmək və izafi israfına yol verməmək;
- torpaqların eroziyasının və küləklərin qarşısını almaq üçün torpaqqoruyucu və tarlaqoruyucu meşə zolaqları salmaq;
- seleksiya yolu ilə yeni quraqlığa və xəstəliklərə davamlı üzüm sortları yaratmaq və onlardan istifadə etməklə yeni bağlar salmaq;
- quraqlığa və xəstəliklərə davamlı üzüm sortlarının əkin materiallarından istifadə etməklə tingçiliyi inkişaf etdirmək;
- əkinçilik və heyvandarlıq sahəsində kənd təsərrüfatı məhsullarının istehsalı zamanı düzgün idarəetmənin olmamasından yaranan emissiyaları azaltmaq;
- emal müəssisələrində yeni, müasir havalandırma sistemlərindən istifadə etməklə atmosferə buraxılan zərərli qazların qarşısını almaq;

- kənd təsərrüfatı sahəsində çalışan təcrübəli alim və mütəxəssislərin bilik və bacarıqlarından daim istifadə etmək;

- işğaldan azad olunmuş ərazilərdə meşələrin bərpası, su hövzələrinin çirklənməsinin qarşısının alınması, minalarla sirayətləndirilmiş torpaqların təmizlənməsi və faydalı qazıntı yataqlarının istismarının yeni texnologiya əsasında icra olunması əsas prioritetlərdəndir.

Hazırda ətraf mühitin qorunması, təbii ehtiyatların, bitib-tükənməz faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi ilə əlaqədar bir sıra mühüm əhəmiyyətli tədbirlər həyata keçirilir.